# Kornell Universiteti

**Yerləşir:** ABŞ, Nyu-York ştatı, İtaka şəhəri
**Yaranma tarixi:** 1865-ci il
**Tipi:** Özəl
**Akademik heyət:** 2908 nəfər
**Tələbələrin ümumi sayı:** 21904 nəfər
**Rəsmi saytı:** www.cornell.edu

Kornell Universiteti (Cornell University) ABŞ-ın nüfuzlu və ən böyük ali məktəblərindən biridir. Universitet Nyu-York ştatının İtaka şəhərində yerləşir. Kornell Universiteti ABŞ-ın səkkiz nüfuzlu ali məktəbini birləşdirən Sarmaşıq Liqasına daxildir və bu qurumun ən gənc üzvüdür. Kornell Universitetinin İtakada yerləşən əsas kampusdan əlavə, Nyu-York şəhərində və Qətər dövlətində də kampusları mövcuddur. Ali məktəb Böyük Britaniyanın "The Times Higher Education World Reputation Rankings" jurnalının və "QS World Universities Rankings" nəşrinin 2015-2016-cı dərs ili üçün reytinq sıralamasında 17-ci, Amerika universitetlərinin milli reytinqində isə 15-ci yerdə sıralanıb.





Tələbələr elektrotexnika təcrübəsində



Final imtahanları



2016-cı ilin məzun günü

## Tarixi

Kornell Universitetinin yaranmasında biznesmen, teleqraf sənayesinin əsasını qoymuş Ezra Kornellin və tanınmış alim, siyasətçi Endryu Uaytın böyük rolu olub. Hələ XIX əsrin 50-ci illərində Kornell və Uayt bir-birindən xəbərsiz ümummilli, ən qabaqcıl tədris metoduna malik, elmi-texniki tərəqqinin tələblərinə cavab verə biləcək bir ali təhsil müəssisəsi yaratmaq fikrinə düşüblər. E.Kornell teleqraf biznesindən əldə etdiyi gəlirlərin yarısını xeyriyyə məqsədlərinə sərf etmək qərarına gəlib. Hər iki mesenat - Kornell və Uayt universitet yaratmaq məqsədilə ABŞ prezidenti A. Linkolna müraciət edir, lakin onların planlarının həyata keçməsinə həmin dövrdə baş verən Vətəndaş müharibəsi mane olub.

Kornell və Uayt 1862-ci ildə Nyu-York ştatında senat üzvü olarkən tanış olublar və hər ikisi xüsusi səylə yeni universitet yaratmaq layihəsi üzərində işləyib. Onlar milliyyətindən, cinsindən, təbəqəsindən və dinindən asılı olmayaraq hər kəsin istənilən ixtisas üzrə təhsil ala biləcəyi ali təhsil ocağı yaratmağı planlaşdırıblar. Kornellin "Mən elə bir təhsil müəssisəsi yaratmaq istəyirəm ki, orada hər kəs istədiyi fənni öyrənə bilsin" ifadəsindən sonralar universitetin devizi yaranır: "İstənilən şəxs - istənilən elm". Kornell şəxsi büdcəsi hesabına İtaka şəhərində 1,2 hektar ərazi alıb. 1865-ci il aprelin 27-də Nyu-York ştatının qubernatoru Royben Fenton universitetin yaradılması haqqındakı sənədi imzalayıb və bu tarixi hadisə Kornell Universitetinin yarandığı gün kimi qeyd olunub. Endryu Uayt yeni yaranmış universitetə prezident təyin olunub. Uayt universitetə rəhbər təyin edilən gündən təhsil müəssisəsinin idarəetmə prinsipini, tədris proqramlarını hazırlayıb, qabaqcıl müəllimləri bu ali məktəbə cəlb edib. Sonra o, Avropa universitetlərinin təcrübəsi ilə tanış olmaq, tədris və metodik vəsaitlər əldə etmək məqsədilə dünya ölkələrinə səfər edib, Kornell isə universitet binalarının tikintisi ilə məşğul olub. Universitetin rəsmi açılışı 1868-ci il oktyabrın 7-ə təsadüf edir. Bu tarixdən bir gün əvvəl qəbul imtahanı keçirilib və 412 abituriyent uğurla imtahan verərək Kornell Universitetinin ilk tələbələri olub. Həmin vaxta qədər heç bir yeni yaranmış Amerika universiteti bu qədər tələbə qəbul etməmişdi. Yarandığı gündən Kornell Universitetinə oğlanlarla yanaşı, qızlar da qəbul olunub. Lakin qız tələbələr üçün yataqxananın olmaması onların sayının daha da artmasına ciddi maneə yaradıb. Universitetdə qızlar üçün ilk yataqxana 1875-ci ildə tikilib. Bu ali təhsil müəssisəsinin bakalavr pilləsini 1873-cü ildə bitirmiş ilk qız məzun Emma İstmen, ilk doktorluq dərəcəsini 1880-ci ildə almış qadın isə Mey Preston olub. 1868-ci ildə Kornell Universitetinin tələbələri müstəqil və sərbəst surətdə fənn seçmək, öz tədris proqramlarını hazırlamaq hüququ qazanıblar. Bu addım, sözün əsl mənasında, inqilab kimi dəyərləndirilib və tələbələrin hazırladıqları həmin proqram onilliklər keçdikdən sonra ABŞ-ın adi tədris proqramına çevrilib.

1892-ci ildə universitetin 3-cü prezidenti Y.Q.Şurmann inauqurasiyası zamanı çıxışında Nyu-York ştatının rəhbərliyinə müraciət edərək onlardan universitet üçün ərazi və bu təhsil ocağının inkişafına kömək istəyib. Rəhbərlik həmin müraciətə cavab olaraq Kornell Universitetinin nəzdində Baytarlıq Kollecinin yaradılması üçün subsidiya ayırıb, eləcə də hər il kollecə maliyyə yardımı göstərib. Beləliklə, Kornell Universiteti ABŞ-da dövlət tərəfindən yardım alan ilk özəl ali məktəb kimi tanınır və bundan sonra Kornell Universitetində təhsil alan nyu-yorklu tələbələrə təhsil haqqının ödənilməsində güzəştlər edilir.

XX əsrdə universitet sürətlə inkişaf etməyə başlayıb, əsrin ortalarına qədər məktəb və kolleclərin sayı 10-dan çox olub. Bütün kollec və məktəblər muxtariyyət hüququna malik olaraq öz akademik proqramlarını yaradır və qiymət sistemini tətbiq edib. Məsələn, bakalavr dərəcəsi almaq üçün ümumi universitet imtahanına üzgüçülük və idmanın başqa növü üzrə imtahanlar daxil edilib. Eyni zamanda hər bir tələbə oxuduğu fakültədən asılı olmayaraq, istənilən başqa fakültənin proqramını öyrənə bilər. Universitetdə mütəmadi olaraq fakültələrarası proqramlar və kurslar təşkil edilir.

Kornell Universitetinin nəşriyyatı 1889-cu ildə yaradılıb. Mexaniki İncəsənət Kollecində fəaliyyət göstərən ilk nəşriyyat sonradan Mühəndislik Məktəbinə köçüb. Nəşriyyatın burada fəaliyyət göstərməsinə görə müəllim və tələbələr çap işini çox yaxşı bilirdilər. Burada dərslik, elmi nəşrlər, həftəlik tələbə jurnalları, pamfletlər, rəsmi universitet sənədləri də çap olunur. İl ərzində antropologiya, ədəbiyyat, tarix, fəlsəfə, siyasət, beynəlxalq münasibətlər, psixologiya, psixiatriya və s. sahələr üzrə 150-dən çox məqalə dərc olunur.

Kornell Universiteti beynəlxalq təhsil və elmi əməkdaşlıq sahələri üzrə hər zaman fəal mövqe tutmağı ilə seçilib. Son zamanlar onun fəaliyyətində məhz bu sahə daha sürətlə inkişaf edir. Qətərdə yerləşən Vil Tibb Kolleci, Çin, Hindistan, Sinqapur və digər ölkələrin universitetləri ilə bağlanmış əməkdaşlıq müqavilələri Kornell Universitetinin "dünyanın ilk transmilli universiteti" adlandırılmasına səbəb olur.

## Universitet bu gün

Kornell Universitetinin əsas kampusu Nyu-York ştatının İtaka şəhərində yerləşir. Universitet yarandığı vaxtlar 1,2 hektar ərazidə yerləşirdisə, hazırda onun İtakada ərazisi 3 hektara yaxındır. Bu ərazidə yerləşən 260 bina Mərkəzi və Şimali kampuslar arasında bölünüb. Universitetin bütün tədris korpusları, laboratoriyalar, muzeylər, inzibati binalar, yataqxanalar Mərkəzi kampusda cəmlənib. Kampusun binaları elektrik, qotik, viktorian, neoklassik və modern üslublarda inşa edilib. Kornell Universitetinin Nyu-Yorkda da kampusu mövcuddur. Burada universitetin bakalavrları üçün Veil Tibb Kolleci və aspirantlar üçün Veil Ali Tibb Kolleci yerləşir. Bu kolleclər 1927-ci ildən Nyu-Presbiterian hospitalı ilə birgə fəaliyyət göstərir. Universitetin Nyu-Yorkda Kornell xidmət proqramı da mövcuddur. Proqram tələbələrə Nyu-Yorkdakı kasıb uşaq, ailə və icmalara köməyi təklif edir. Buradakı İnsan Ekologiyası, Kənd Təsərrüfatı və Həyat Elmi kollecləri, Sənaye və Əmək Əlaqələri Məktəbi də həmin məqsədlərə xidmət edir. Mühüm maliyyə rayonu olan Manhettendəki Mühəndislik Kolleci biznes-tədqiqatların optimallaşması, sənayenin, ictimai əməkdaşlığın gücləndirilməsi və digər bu kimi işlər görür.

Kornell Universitetinin Qətərdəki təhsil şəhərciyində 2004-cü ilin sentyabrında açılan Veil Tibb Kolleci fəaliyyət göstərir. Bu kollec ABŞ-ın hüdudlarından kənarda açılmış ilk tibb məktəbidir. Qətər dövləti ilə Kornell Universitetinin məlum birgə layihəsi bu ölkədə akademik proqramların və tibbi xidmətlərin yüksəldilməsi üçün həyata keçirilib. Kollec Qətər dövləti tərəfindən maliyyələşir və Qətər fondu məktəbin tikintisinə 750 milyon dollar vəsait ayırıb. Buradakı Veil Tibb Kolleci memar Arat İsodzaki tərəfindən inşa edilən ikimərtəbəli böyük binada yerləşir. Kornell Universitetinin nəzdində bakalavr, magistrant və aspirantların təhsil ala biləcəyi 14 kollec və məktəb fəaliyyət göstərir: Kənd Təsərrüfatı və Həyat Elmi Kolleci, Memarlıq, İncəsənət və Planlaşdırma Kolleci, İncəsənət və Elmlər Kolleci, Mühəndislik Kolleci, Hotel Administrasiyası Məktəbi, İnsan Ekologiyası Kolleci, İstehsal və Əmək Münasibətləri Məktəbi, Kornell Ali Məktəbi, Kornell Hüquq Məktəbi, Conson adına Ali Biznes Məktəbi, Veil Tibb Kolleci (Nyu-York), Baytarlıq Məktəbi, Təhsilin Davam etdirilməsi Məktəbi. Kornell Universiteti geniş beynəlxalq əlaqə layihələrini həyata keçirir. Burada tələbələrə Afrika, fransız, alman, yəhudi, latın, Yaxın Şərq, Uzaq Şərq, rus, roman dilləri, ədəbiyyatı və mədəniyyəti üzrə proqramlar təklif edilir. Universitetin Asiya ölkələri üzrə tədqiqatlar proqramı mövcuddur. Bu məqsədlə Kornell Universitetinin Mühəndislik Kolleci Pekinin Sinxua, Hotel Administrasiyası Məktəbi Sinqapurun Nanyanq Texnologiya, Kənd Təsərrüfatı və Həyat Elmi Kolleci Filippinin Los-Banyos universitetləri və Yaponiya Milli Aqrobiologiya Elmləri İnstitutu ilə müqavilələr bağlayıb. Kornell Universiteti Kanadanın Kuin Universiteti ilə birgə MBA proqramı həyata keçirir.

Kornell Universitetinin kitabxana sistemi böyüklüyünə görə ABŞ-da 11-ci yerdədir. Kitabxana sisteminə 9 milyon cilddən çox kitab, 8,5 milyon mikrofilm və mikrofişlər, 450 min xəritə, kino, DVD, səsyazma, kompüter faylları, arxivlər və rəqəmsal resurs aiddir. Bu, İnternet şəbəkəsinə qoşulan ilk ABŞ kitabxanalarındandır. Kitabxanaların çoxu İtakada yerləşən kampusda cəmləşib. Nyu-York və Qətərdə də universitetin kitabxanaları mövcuddur. Universitetin kitabxana sisteminə Adelson (Ornitologiya laboratoriyası), Afrikan, Katervud, Entomologiya, Təsviri incəsənət, Cenevrə təcrübə stansiyası, Kroç, Hüquq, İdarəetmə, Mann, Riyaziyyat, Tibb, Musiqi, Nestle (Hotel Administrasiyası Məktəbinin kitabxanası), Oloin və Yuris, Fiziki elmlər, Baytarlıq kitabxanaları daxildir.

Dünyanın başqa universitetlərində olduğu kimi, Kornell Universitetinin tələbələri də təhsil aldıqları məktəbin ərazisində məskunlaşıblar. Tələbə yataqxanaları, əsasən, Şimal, Qərb və Kollectaun kampuslarında yerləşir. Şimal kampusda birinci kurs tələbələri qalırlar, lakin burada yuxarı kurs tələbələri üçün də bir neçə yataqxana - Risli, Yalnız musiqi, Ekologiya evi, Hollandiya beynəlxalq yaşayış mərkəzi, Latino yaşayış mərkəzi, Akvekon və Ujamaa rezidensiyaları mövcuddur. 2008 və 2009-cu illərdə ABŞ-ın "Ali təhsil xronikası" jurnalı Kornell Universitetini "Böyük robot kolleci" adlandırıb. Bu ad universitetə rəhbərlik işinin yüksək səviyyədə qurulması, əməkdaşların işləməkdən zövq alması, onlara təqaüdə çıxdıqdan sonra yüksək məbləğdə təqaüd və kompensasiya ödənilməsi, tələbələrin, eləcə də digər əməkdaşların burada oxuyub fəaliyyət göstərdikləri üçün verilib.

## Büdcəsi və təhsil haqları

Ötən il universitetin endaument fondunun həcmi 6.2 milyard dollar təşkil edib. Ali məktəbin prezidenti Hunter Ravlinqs, rektoru isə Maykl Kotlikoffdur. Universitetin akademik heyəti 1639 (İtaka), Nyu-York (1235), Doha (34) nəfər təşkil edir. 2015-2016-cı dərs ilində universitetin tələbələrinin ümumi sayı 21904 nəfər olub. Onlardan 14315 nəfər bakalavrlar, 7589 nəfər magistrlərdir.

2015-2016-cı tədris ili üçün universitetdə illik təhsil haqları 50953 dollar olub. Tələbələrin kirayə haqqı 8274, qidalanma 5626, kitablar və digər tədris vəsaitləri 910 və digər xərcləri 1850 dollar təşkil edir. Beləliklə də Kornell Universitetində birillik təhsil 67613 dollara başa gəlir. Nyu-York ştatının sakinləri üçün güzəştli birillik təhsil haqqı 30 faiz güzəştlə 16000 dollardan bir qədər artıqdır. Tələbələrin 21 faizi əcnəbilərdir. Ali məktəbdə 120 ölkədən tələbə təhsil alır.

Digər Amerika universitetlərində olduğu kimi, bu ali məktəbdə də universitetin yerləşdiyi ştatdan olan tələbələrə təhsil xərclərində xüsusi güzəştlər tətbiq olunur.

## Universitetin elmi nailiyyətləri

1952-ci ildə Kornell Aviasiya Elmi-Tədqiqat Laboratoriyasının əməkdaşı Con Mur "Avtomobildə qəza travmalarının aradan qaldırılması üzrə araşdırma" layihəsini həyata keçirib. O, təcrübələrini manekenlərin deyil, meyitlərin üzərində aparıb və belə nəticəyə gəlib ki, sükan çarxının enerjisini mənimsəyən qapının qıfılının genişləndirilməsi, yumşaq panel və təhlükəsizlik kəməri zədələrin faiz nisbətini xeyli azaldır. Layihənin nəticəsi olaraq, 1956-cı ildə "Kornell təhlükəsizlik avtomobili" nümayiş etdirilib, bu isə avtomobil istehsalçılarında müsbət dönüş yaradıb və onlar həmin yenilikləri tətbiq etməyə başlayıblar. 1962-ci ildən başlayaraq Kornell Universitetinin tədqiqatçıları Mars planetinə pilotsuz uçuşu və XXI əsrdə "Mars Araşdırma Səyyahı" ("Mars Exploration Rover") missiyasını həyata keçirib. 2004-cü ildə "səyyahlar" elmi nailiyyətlərinə görə "İlin uğuru" mükafatına layiq görülüblər. Onlar Marsda apardıqları tədqiqatlardan əlavə, Uran planetinin ətrafında mövcud olan halqaları müəyyən ediblər. Aresiboda (Puerto-Riko adasında ərazi) Kornell Universitetinin dünyada ən böyük və həssas radioteleskopu yerləşir. 1984-cü ildə universitetin Milli elm fondu 5 yeni superkompüter istehsalı mərkəzi yaradıb. 1985-ci ildə fond ARPANET-ə qoşula biləcək NSFNET, TCP/IP-şəbəkə kompüterləri istehsal edib. NSFNET internetin sürətli inkişafı üçün dönüş nöqtəsi olub və ümumdünya hörümçək torunun inkişafına gətirib çıxarıb. Kornell Universitetinin alimləri 80 ilə yaxındır ki, elementar hissəciklərin tədqiqatı ilə məşğuldurlar. Universitetin fizikləri, xüsusilə Hans Bete nüvə fizikasının inkişafına nail olub. Onlar həmçinin Manhetten layihəsinin iştirakçılarıdırlar. 1930-cu ildə Kornell Universitetində ABŞ-da ikinci dəfə olaraq siklotron quraşdırılıb, 1950-ci ildə ilk dəfə burada sinxron şüalanma öyrənilib. 1990-cı ildə universitetdə dünyada birinci olaraq ən yüksək işıqlılıq qabiliyyətinə malik elektron-pozitron kollayder yaradılıb. Sinxotronu yaratdıqdan sonra alim Robert Uilson ABŞ-da ən böyük sürətləndirici quraşdırmağı nəzərdə tutan "Fermilab"ı yaratmağa başlayıb.

## Məşhur məzunları

Kornell Universiteti bir sıra məşhur məzunları ilə tanınır. Li Tenq-hui (Çin Xalq Respublikasının sabiq prezidenti), Mario Qarsia Menokal (Kubanın sabiq prezidenti), Camşid Amuzeqar (İran İslam Respublikasının sabiq baş naziri), Sendi Berger (ABŞ-ın sabiq prezidenti Bill Klintonun milli təhlükəsizlik üzrə məsləhətçisi), Stefan Hedli (ABŞ-ın sabiq prezidenti Corc Buşun milli təhlükəsizlik üzrə məsləhətçisi), Paul Vulfoviç (Dünya Bankının sabiq prezidenti), Uiliyam Rocers (ABŞ-ın sabiq dövlət katibi), Edmund Muskie (ABŞ-ın sabiq dövlət katibi), Janet Reno (ABŞ-ın sabiq baş prokuroru), Rut Bader Ginsburq (ABŞ Ali Məhkəməsinin sabiq hakimi) universitetin tanınmış məzunlarındandır.

Ali məktəb Nobel mükafatına layiq görülmüş məşhur alimlərilə də tanınır. Kornell Universitetinin müəllim və məzunlarından 50 nəfər Nobel mükafatına layiq görülüb. Onların arasında Riçard Feynman (fizika üzrə), Devid Li (fizika üzrə), Robert Kolman Riçardson (fizika üzrə), Hannes Alfven (fizika üzrə), Piter Debye (kimya üzrə), Riçard Ernst (kimya üzrə), Roald Hoffmann (kimya üzrə), Herbert Spenser Gaser (fiziologiya və tibb üzrə), Paul Qrinqard (fiziologiya və tibb üzrə), Frits Albert Lipmann (fiziologiya və tibb üzrə), Norman Borlauq (sülh üzrə) Amartya Sen (iqtisadiyyat üzrə), Oktavio Paz (ədəbiyyat üzrə), Vul Soyinkanın (ədəbiyyat üzrə) adlarını çəkmək olar.

Universitetin hazırda yaşayan məzunlarının sayı 245 mini keçib. Mövcud olduğu tarix ərzində ali məktəbin yetirmələrindən 31 nəfər Marşal, 28 nəfər Rods təqaüdünə layiq görülüb.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*